AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№65 (1335), 31 oktyabr - 2 noyabr 2017-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Prezident İlham Əliyev Bakıda yeni istifadəyə verilən idman və istirahət parkında yaradılan şəraitlə tanış olub



Oktyabrın 28-də Bakının Səbail rayonunda yeni idman və istirahət parkı istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parkda yaradılan şəraitlə tanış olub.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri, həyata keçirilən layihələr və sosial proqramlar çərçivəsində bu ilin may ayından 20-ci yaşayış sahəsindəki Su İdmanı Sarayı ilə üzbəüz 1,7 hektarlıq ərazidə yeni idman və istirahət parkının salınmasına başlanıb və artıq işlər başa çatdırılıb. Parkın layihəsi dünya şöhrətli memar və dizaynerlər tərəfindən ingilis layihəsi əsasında hazırlanıb və Azərbaycanda ilk dəfə olaraq həyata keçirilib. Xüsusi layihə çərçivəsində görülən işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilib.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb. Əhalinin istirahəti üçün hərtərəfli şəraitə malik olan bu parkın salınması da həmin işlərin tərkib hissəsidir. Digər tərəfdən, bu park Su İdmanı Sarayının ətrafında həyata keçirilən genişmiqyaslı yenidənqurma və abadlıq işlərinə mühüm töhfə olub. Parkın digər özəlliyi buraya istirahətə gələnlərin idmanla məşğul olmasına şərait yaradılmasıdır. Bu məqsədlə parkda 900 kvadratmetr sahədə iki basketbol, habelə həndbol və mini futbol meydançaları qurulub.

Bundan əlavə, açıq havada məşq etmək üçün müxtəlif idman trenajorları qoyulub. Ekstremal idman növlərinə həvəs göstərən uşaq və yeniyetmələrin marağı da nəzərə alınıb. Onlar üçün 450 kvadratmetr sahədə ikihissəli - həm böyüklər, həm də balacalar üçün skeytbordinq meydançası düzəldilib. Parkın digər hissəsində stolüstü tennis, uşaq əyləncə qurğuları, yelləncəklər quraşdırılıb. İdman və istirahət parkı xüsusi işıqlandırma sistemi ilə təchiz edilib.

Parkın giriş-çıxışını dekorativ arkalar bəzəyir. Üzəri müasir dizaynla rənglənən və cizgi filmləri qəhrəmanlarının şəkilləri ilə bəzədilən 350 metrlik divar da parka xüsusi yaraşıq verir. Parkda yaşıllaşdırma işlərinə də xüsusi diqqətlə yanaşılıb. Beş min kvadratmetrlik sahədə müxtəlif ağaclar və bəzək kolları əkilib, gül kompozisiyaları yaradılıb, suvarma sistemi qurulub. Bununla da park rayon sakinləri və şəhərimizin qonaqları üçün gözəl idman, əyləncə və istirahət məkanına çevrilib.

## Bakıda BMX üzrə sınaq yarışları keçirilib

Gələn ilin iyun ayının 5-9-da Bakıda velosiped idmanının BMX növü üzrə təşkil olunacaq dünya çempionatı ilə əlaqədar BMX Veloparkında sınaq yarışı keçirilib. Beynəlxalq Velosipedçilər İttifaqının təqvim planında yer alan C1 kateqoriyalı yarışda Türkiyə, Fransa, Yaponiya, Rusiya Federasiyası, Litva, Çex Respublikası, İtaliya və Almaniyanın kişi və qadın komandaları qüvvələrini sınayıb.

Sınaq yarışında qaliblər 4 kateqoriya üzrə müəyyənləşib. Gənc oğlanların mübarizəsində Yaponiya təmsilçisi Asuma Nakay fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Ciakomo Qarqaliya (İtaliya) 2-ci, İlya Beskrovnıy (Rusiya) isə 3-cü olub. Eyni kateqoriyada gənc qızlar arasında yenə də Yaponiya təmsilçisi fərqlənib. Sae Hatakeyama 1-ci, Varvara Ovçinnikova (Rusiya) isə 2-ci yeri tutub.

Elit kateqoriyada yarışan qadınlar arasında Rusiya təmsilçiləri hamıdan güclü olublar. Natalya Afremova 1-ci, Yaroslava Bondarenko 2-ci, Natalya Suvorova 3-cü yeri tutub. Kişi velosipedçilərin mübarizəsi isə Fransa təmsilçilərinin üstünlüyü ilə keçib. Mükafatalayiq yerləri Andre Silven, Romen Maye və Jeremi Renkurel tutublar.

Qaliblərə mükafatları Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Prezident Administrasiyasının Gənclər və İdman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev və Azərbaycan Velosiped İdmanı Federasiyasının 1-ci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov təqdim ediblər.




Qeyd edək ki, velosiped idmanının digər növləri ilə müqayisədə daha gənc olan BMX 2008-ci ildən etibarən yay Olimpiya Oyunlarının proqramına daxil edilib və ən geniş tamaşaçı kütləsi toplayan idman növlərindən biridir.

## Cüdoçularımız "Böyük dəbilqə" turnirini 4 medalla başa vurublar

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə keçirilən cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turnirinə yekun vurulub. Yarışda 47 ölkədən 277 idmançı (172 kişi, 105 qadın) mübarizə aparıb. Komandamız turnirdə 11 cüdoçu (8 kişi, 3 qadın) ilə təmsil olunub.



Komandamız yarışın ilk günündə aktivinə bir medal yazdırıb. 66 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Nicat Şıxəlizadə gümüş medala layiq görülüb.

Yarışın ikinci günündə Rüstəm Orucov (73 kq) komandamıza növbəti medalı qazandırıb. Təmsilçimiz "Böyük dəbilqə"nin bürünc medalına sahib olub. Yarışın sonuncu günündə cüdoçularımız uğurla çıxış edərək iki medal qazanıblar. Qadınların yarışında 78 kq çəki dərəcəsində mübarizə aparan İrina Kindzerskaya "Böyük dəbilqə" turnirində ikinci yeri tutub. Kişilərin yarışında 90 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Məmmədəli Mehdiyev isə mötəbər turnirin bürünc medalına yiyələnib. Cüdoçumuz üçüncü yer uğrunda görüşdə rusiyalı Aleksandr Roslyakovu məğlub edib.

Beləliklə, Azərbaycan millisi Abu-Dabi "Böyük dəbilqə" beynəlxalq turnirini iki gümüş və iki bürünc medalla başa vurub.

## Praqa 22-ci Baş Assambleyaya ev sahibliyi edəcək

Oktyabr 31-də Çexiyanın paytaxtı Praqa şəhərində Milli Olimpiya Komitələrinin Assosiasiyasının 22-ci Baş Assambleyası keçiriləcək.

Assambleyada Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev və Beynəlxalq Əlaqələr İdarəsinin rəisi Anar Bağırov iştirak edəcək. Tədbir çərçivəsində adı çəkilən təşkilatın Gənclər, Beynəlxalq Əlaqələr, Atletlər və Marketinq Komissiyalarının iclası, həmçinin təşkilatın İcraiyyə Şurasının iclasının keçirilməsi nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, Milli Olimpiya Komitələrinin Assosiasiyası 206 Olimpiya komitələrini birləşdirən qurumdur. Hər il adı çəkilən təşkilatın Baş Assambleyasında müxtəlif mühüm məsələlərlə yanaşı, mükafatlandırma mərasimi keçirilir. Burada Qitə Oyunları üzrə ən yaxşı kişi və qadın idmançılar seçilir.

Qeyd edək ki, noyabrın 4-nə qədər davam edəcək tədbirdə növbəti Baş Assambleyanın keçiriləcəyi ölkənin adı da müəyyənləşəcək.

**Anons**

Unutsaq, unudularıq

**"O balacalar üçün ata, digər şahmatçılar üçün dost idi"**

**Dünya çempionatında 3 medal sevinci**

**Asiya sınağı uğurla yekunlaşdı**

**FİDE II İntellektual Oyunların iştirakçılarının yekun siyahısını dərc edib**

**Azərbaycan kubokuna yekun vurulub**

**"Lokomotiv" klubu heyətini gücləndirir**

**Şəhid idmançının xatirəsi yad edildi**

Səh. 2

**Messi: bir əfsanə, bir nağıl...**

***Favoritlərdən növbəti qələbə***

*Yeniyetmə sumoçulardan uğurlu nəticə*

***Təmsilçimiz "Glory" seriyalı yarışlarda qələbə qazanıb***

Səh. 3

Karate

# Dünya çempionatında 3 medal sevinci



İspaniyanın Tenerife şəhərində yeniyetmə və gənclər arasında karate üzrə dünya çempionatı keçirilib. 109 ölkədən 1710 idmançının iştirak etdiyi dünya çempionatında Azərbaycan karateçiləri də qüvvələrini sınayıblar. Yarışın üçüncü günündə gənclərdən ibarət seçmə komandalarımızın üzvləri Fidan Teymurova (48 kq) və Hümmət Baxşəliyev (61 kq) gümüş medallara layiq görülüblər. Finalda Fidan Teymurova misirli Reem Salamaya, Hümmət Baxşəliyev isə qazaxıstanlı Yerkinbek Batureyevə məğlub olaraq ikinci olublar.

Çempionatın sonuncu günündə 21 yaşınadək idmançılar arasında Fəridə Əliyeva (+68 kq) bürünc medala sahib çıxıb. Bu nəticə ilə Azərbayan karateçiləri yarışı 16-cı pillədə başa vurublar.

Şahmat

## FİDE II İntellektual Oyunların iştirakçılarının yekun siyahısını dərc edib

Beynəlxalq Şahmat Federasiyası II İntellektual Oyunların (IMSA) iştirakçılarının yekun siyahısını dərc edib. Dekabrın 8-dən 15-dək Çinin Huayan şəhərində keçiriləcək turnirdə 12 qadın və 12 kişi şahmatçı iştirak edəcək.

Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov da iştirakçılar siyahısındadır. O, yarışın reytinq-favoriti sayılır.

Ehtiyat iştirakçıların siyahısına Azərbaycanın ikinci təmsilçisi - qrossmeyster Rauf Məmmədov başçılıq edir.

Qadın şahmatçılar arasında ukraynalı Anna Muzıçuk reytinq-favorit sayılır.

IMSA çərçivəsində sürətli şahmat (İsveçrə sistemi, 11 tur), blitsturnir (dairəvi sistem) və "bask sistemində" (İsveçrə sistemi) yarışlar keçiriləcək.

## Zəka sahiblərimiz Krit adasında yarışırlar

Oktyabrın 28-də Krit adasında (Yunanıstan) şahmat üzrə Avropa komanda çempionatı start götürüb. İsveçrə sistemi üzrə 9 turdan ibarət olan turnirdə kişilərdən ibarət 40 komanda və qadınlardan ibarət 32 komanda mübarizə aparır. Azərbaycanın kişilərdən ibarət yığmasında Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Arkadi Naydiç, Rauf Məmmədov və Qədir Hüseynov çıxış edir. Komandanın kapitanı Eltac Səfərlidir.

Qadınlardan ibarət yığmamızın heyətində Gülnar Məmmədova, Ülviyyə Fətəliyeva, Zeynəb Məmmədyarova, Günay Məmmədzadə və Xanım Balacayeva yer alıb. Komandanın kapitanı Fikrət Sideyifzadədir.

Hər iki turnirdə Rusiya yığmaları reytinq-favoritlər hesab edilir.

Triatlon

# Asiya sınağı uğurla yekunlaşdı

Azərbaycanın triatlon yığmasının üzvü Rostislav Pevtsov Koreya Respublikasının Tongyong şəhərində təşkil olunan sprint üzrə dünya kuboku yarışlarında gümüş medal qazanıb. 750 metrlik su məsafəsini idmançımız 8 dəqiqə 36 saniyəyə başa vurub. Ardınca isə 20 kilometrlik velodistansiyanı 27 dəqiqə 5 saniyəyə qət edib. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını Rostislav Pevtsov 15 dəqiqə 7 saniyəlik nəticə ilə başa vurub. Ümumi hesabda idmançımız 52 dəqiqə 2 saniyə vaxt göstəricisi ilə turnirin gümüş medalına sahib olub.

Qeyd edək ki, cari mövsümdə Rostislav Pevtsov üçüncü dəfə dünya kuboku yarışlarında fərqlənib. Belə ki, triatlonçumuz Çinin Çenqdu şəhərində keçirilən dünya kubokunda gümüş, Honq-Konqda isə qızıl medal qazanıb.

Voleybol

# "Lokomotiv" klubu heyətini gücləndirir

Bakının kişi voleybolçulardan ibarət "Lokomotiv" klubu yeni mövsüm üçün heyətini formalaşdırmağa başlayıb. "Çağırış kuboku" turnirində çıxış edəcək Bakı təmsilçisi baş məşqçi və 9 voleybolçu ilə müqavilə imzalayıb.

Avrokubokda debüt edəcək komandanı yeni ildə də Fərid Cəlalov meydana çıxaracaq. Onun köməkçisi Sergey Nikulenko olacaq.

Məşqçilər korpusu ilə yanaşı, Asif Əliyev, Kənan Allahverdiyev, Dmitri Baranov, Aleksey Çervyakov, Rəsul İbrahimov, İvan Kazaçkov, Dmitri Obodnikov və Pərviz Səmədovla da müqavilə birillik uzadılıb.

"Lokomotiv" yeni voleybolçu ilə də müqavilə imzalayıb. Bu, 16 yaşlı blokçu Ruslan Əliyevdir.

Qeyd edək ki, Bakı təmsilçisi "Çağırış kuboku"nda Kiprin "Apoel" klubu ilə qarşılaşacaq.

Cüdo

# Komandamız Avropa kubokunda birinci oldu

Sloveniyanın Koper şəhərində keçirilən cüdo üzrə yeniyetmələr arasında Avropa kuboku yarışına yekun vurulub. 17 ölkədən 230 idmançının (153 oğlan, 77 qız) mübarizə apardığı turnirdə Azərbaycan milli komandası 15 cüdoçu ilə təmsil olunub.

Yarışın ilk günündə yeniyetmə cüdoçularımız 4 medal qazanıblar.

Qitə yarışında ölkəmizi təmsil edən Azər Məmmədov (50 kq) və Nəriman Mirzəyev (60 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Aqşin Baxşəliyev gümüş, Kamran Süleymanov (hər ikisi 50 kq) isə bürünc medala sahib çıxıb.

Turnirini sonuncu günü də Azərbaycan millisi üçün uğurlu olub. Belə ki, yeniyetmə cüdoçularımız daha üç medal qazanıblar.

Avropa kubokunda ölkəmizi təmsil edən Azər Yaqub İsmayılzadə (90 kq) və Toğrul Salmanov (+90 kq) bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüblər. Digər təmsilçimiz İbrahim Ağakişiyev (81 kq) isə bürünc medalla kifayətlənib.

Beləliklə, Azərbaycan milli komandası Avropa kuboku yarışında 4 qızıl, 1 gümüş və 2 bürünc medal qazanaraq ümumi hesabda bütün ölkələri qabaqlayaraq birinci yeri tutub.

## 100 idmançı 7 çəki dərəcəsində yarışdı

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində cüdo üzrə Silahlı Qüvvələr birinciliyi keçirilib. Yarışda birlik, birləşmə, hərbi hissələri təmsil edən 100-dək idmançı 7 çəki dərəcəsində mübarizə aparıb.



Çempionatı Azərbaycan Cüdo Federasiyasının Hakimlər Komitəsinin sədri, beynəlxalq dərəcəli hakim Fariz Hüseynovun rəhbərliyi ilə hakimlər briqadası idarə edib.

Müdafiə Nazirliyinin fiziki hazırlıq və idman bölməsinin rəisi, polkovnik Sadiq Paşayev çempionatın açılışında çıxış edərək, orduda şəxsi heyətin fiziki hazırlığının daim diqqət mərkəzində olduğunu qeyd edib.

Digər çıxış edənlər bildiriblər ki, hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. Qeyd olunub ki, ordu idmançıları cüdoya da böyük maraq göstərirlər və hər il davamlı yarışlar keçirilir, eləcə də idmançılarımız beynəlxalq yarışlarda uğurla iştirak edirlər.

Beynəlxalq dərəcəli hakim Fariz Hüseynov cüdo idman növü və yarışın qaydaları haqqında iştirakçılara ətraflı məlumat verib.

Silahlı Qüvvələrin cüdo birinciliyində iştirak edən 13 komanda arasında "Şəmkir", "Beyləqan" və "Bakı" kollektivləri müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar. Qaliblər medal, fəxri fərman və diplomlarla təltif olunublar.

Birinci yeri tutmuş komandaya keçici kubok təqdim edilib.

## Şəhid idmançının xatirəsi yad edildi

Qusarda aprel döyüşlərində şəhid olan Əmiraslan Xeyirbəyovun xatirəsinə həsr olunan yeniyetmə və gənclərin iştirakı ilə cüdo turniri keçirilib. Yarış "Yurd" Gənclərin İntellektual İnkişafına Dəstək İctimai Birliyinin reallaşdırdığı "Aprel döyüşləri qələbəmizin ilk carçısıdır!" layihəsi çərçivəsində təşkil olunub. Turnirin açılış mərasimində layihə rəhbəri Ramin Mahmudov çıxış edərək aprel döyüşlərində Azərbaycan Ordusunun şanlı zəfərindən danışıb, gənclərə vətənin igid övladlarının qəhrəmanlığı barədə məlumat verib. Vurğulanıb ki, turnirin məqsədi gənc nəslə aprel döyüşlərində şəhid olan qəhrəmanlarımızın igidliklərini və şərəfli həyat yolunu təbliğ etməklə onların xatirəsini daim yaşatmaq, gənclərdə vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə xidmət etməkdir.

Şəhidin atası Xəlil Xeyirbəyov övladının xatirəsinə göstərilən yüksək ehtirama görə təşəkkürünü bildirib, övladının vətən uğrunda şəhidlik zirvəsinə ucalması ilə qürur duyduğunu bildirib.

On çəki dərəcəsi üzrə keçirilən cüdo yarışlarının qaliblərinə diplom, medal və qiymətli hədiyyələr təqdim olunub. İştirakçılara xüsusi kitabça və bukletlər paylanılıb.

Stolüstü tennis

# Azərbaycan kubokuna yekun vurulub



Stolüstü tennis üzrə 2000-2002-ci illər, 2003-cü il təvəllüdlü və daha aşağı yaşlı gənclər və yeniyetmələr arasında Azərbaycan kuboku yarışlarına yekun vurulub. Turnirin bağlanış mərasimində çıxış edən Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov ölkəmizdə idmanın bu növünün inkişafında belə yarışların əhəmiyyətini qeyd edib. Turnirin maraqlı və gərgin idman mübarizəsi şəraitində keçdiyini vurğulayan Fazil Məmmədov qalibləri təbrik edib.

Qaliblərin mükafatlandırılması mərasimində fəxri kürsüdə yer alan idmançılara Gənclər və İdman Nazirliyinin diplomları, Azərbaycan Stolüstü Tennis Federasiyanın kubok və medalları təqdim edilib.

* * *

Stolüstü tennis üzrə növbəti festival ənənəvi olaraq Bakı Bulvarında keçirilib. Yığma komanda üzvləri tennis oynamaq istəyən həvəskarlara ustad dərsləri nümayiş etdiriblər. Həvəskarlara tennis raketkaları hədiyyə olunub və stolüstü tennislə məşğul olmaq üçün məşq yerləri barədə bukletlər paylanılıb.

Atıcılıq

# Ölkə çempionatının qalibləri müəyyənləşib

Oktyabrın 29-da Novxanı Atıcılıq Mərkəzində stend atıcılığının kompakt-sportinq növü üzrə Azərbaycan çempionatının qalibləri müəyyənləşib. Azərbaycan Atıcılıq Federasiyasının təşkilatçılığı ilə keçirilən ikigünlük çempionatda 30-dək idmançı birincilik uğrunda mübarizə aparıb. Milli komandanın və yığmaya cəlb olunan yeni atıcıların iştirak etdiyi çempionat Dünya Atıcılıq və Ovçuluq Federasiyasının qaydaları əsasında təşkil olunub.



Gərgin idman mübarizəsi şəraitində keçən yarışda 178 xalla Etibar Abdullayev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İlham Mahmudov 177 xalla ikinci, Rauf Sadıxov isə 173 xalla çempionatı üçüncü pillədə başa vurub.

Yeniyetmələrin yarışında isə fəallığı ilə seçilən Adəm Hüseynov, Təvəkkül Seyidov və Elman Qarazadəyə xüsusi diplom təqdim olunub.

Çempionatın bağlanış mərasimində çıxış edən Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti Rasim Rzayev ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, idmançılarımızın beynəlxalq arenada qazandığı nailiyyətləri yüksək qiymətləndirib. Mükafatçıları təbrik edən vitse-prezident idmanın bu növünün ölkəmizdə yeni inkişaf etməsinə baxmayaraq atıcılarımızın peşəkarlığını xüsusi vurğulayıb.

Gənclər və İdman Nazirliyinin əməkdaşı Ülviyyə Hacıyeva atıcılıq idmanının ölkəmizdəki inkişafından danışıb və iştirakçılara gələcək yarışlarda uğurlar arzulayıb.

Boks




# Medal qazanan 15 ölkə arasında ölkəmizin də adı var

Türkiyənin Antalya şəhərində keçirilən gənc boksçular arasında Avropa birinciliyi başa çatıb. 8 gün davam edən yarışın yekununa əsasən medal qazanan ölkələrin də siyahısı açıqlanıb.

Mundialda tam heyətlə təmsil olunan yığmamız 4 medal yiyələnib. Hesabına 1 qızıl, 1 gümüş və 2 bürünc mükafat yazan komandamız medalların həm əyarına, həm də sayına görə Avropa birinciliyini 4-cü pillədə başa vurub.

Ümumilikdə, 15 ölkə Antalyada medala sahib olub. Onlardan cəmi 6-sı çempionluq sevinci yaşayıb.

Siyahıda birinci yeri Rusiya yığması tutub. Şimal qonşularımız 5 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar. 2-ci pilləyə isə ev sahibi Türkiyə və boks ənənəsi ilə fərqlənən Ukrayna şərik olub. Hər iki komanda 1 qızıl, 2 gümüş və 2 bürünc medala yiyələnib. Millimiz 33 ölkə arasında ümumi sıralamada 4-cü yeri tutub.

Qeyd edək ki, yığmamızın heyətində Məhəmməd Abdullayev (+91 kq) qızıl, Amin Kuşkov (75 kq) gümüş və Həsən İbrahimovla (49 kq), Surət Qarayev (81 kq) isə bürünc medal qazanıb.

Futbol



Mobil İSMAYILOV

# Messi: bir əfsanə, bir nağıl...

### O, komandanın ilhamvericisidir

Messinin oyunu çoxşaxəli, hərtərəflidir. Meydanda onun sifət cizgiləri də dəyişir. Sanki qılınc qınından sıyrılır. Tamaşaçıda tamam başqa bir ovqat yaranır. Oyun başlayan kimi o, diqqət mərkəzinə çevrilir. Ustalıq adamı valeh edir, heyran qoyur. Messi bəzi futbol ulduzları üçün xarakterik olan artistlikdən uzaqdır. Amma tamaşaçıları ələ almağı bacarır. Oyunu qurmaq məharəti çox yüksəkdir. Top ötürməkdə, qol imkanları xəsislik etmir. Futbolsevərlərə bəllidir ki, o, komandanın ilhamvericisidir. Meydanda olmayanda açıq-aşkar hiss olunur ki, komanda səliqəli, rahat oynaya bilmir.

### Dahi futbolçu olmasına baxmayaraq, paxıllıq hissləri yoxdur

Onun əvəzolunmazlığı təkcə heyrətamiz sürəti, misilsiz texnikası və digər ustalıq keyfiyyətləri ilə bitmir. O, əslində başqa keyfiyyətləri ilə də tamaşaçıların, azarkeşlərin rəğbətini qazanmışdır. Səmimidir, özündən razılıq hissləri ona yaddır. Tanınmış futbol ulduzlarından fərqli olaraq klubda, jurnalistlər, azarkeşlər arasında "mən"ini heç kəsin gözünə soxmur. Mətbuat konfranslarında görünməyi sevmir. Heç vaxt yersiz, qıcıqlandırıcı müsahibələr vermir. Simulyantlıqdan uzaqdır, hakimlərlə mübahisə etmir. Komanda yoldaşlarından kimsə qol imkanını qaçırdıqda, iradını bildirmir. Əlverişli vəziyyətlərdə ona ötürmələr edilmədikdə, heç vaxt başqaları kimi üz-gözünü turşutmur, narazılıq jestləri etmir. Qol sevincini hamı ilə özünəməxsus tərzdə bölüşməyi sevir. Komanda üzvlərindən kimin qol vurmasından asılı olmayaraq, həvəslə sevinclərə qoşulmaqla qrup halında təbii qucaqlaşma səhnələri yaratmağı bacarır. Dahi futbolçu olmasına baxmayaraq, paxıllıq hissləri yoxdur. Meydandakı davranışı, özünə qarşı kobud qayda pozuntusunu da təmkinlə qarşılaması, qonaq gedərkən yerli komandanın qapısına vurduğu qolların sevincini sakit tərzdə biruzə verməsi digər futbol ulduzlarından fərqli olaraq, hətta rəqib komandanın azarkeşlərində də ona qarşı daxilən müəyyən bir rəğbət hissi yaradır. Ümumiyyətlə, oyun boyu o, heç kimi qıcıqlandırmır, nə rəqib komandanın oyunçularını və onun azarkeşlərini. Dünyanın bütün stadionlarında ona normal münasibət bəslənilir. Heç bir rəqib meydanında ona qarşı kin-küdurət, nifrət hissləri müşahidə edilmir. Hələ indiyə qədər nəinki İspaniya stadionlarında, ümumiyyətlə, Avropanın, dünyanın heç bir stadionunda onu fitə basmayıblar. Sanki rəqib komandaların azarkeşləri də Messinin qonaq olduğu meydanlarda da qol vurmağına alışıblar. Messi məhz bu keyfiyyətlərinə görə də əvəzolunmazdır.

*Bəlkə də o, futbolçu peşəsini seçməsə idi, adi insanlardan biri olardı. Onunla rastlaşanda, heç kimin diqqətini cəlb etməzdi. Yüz minlərdən biri olaraq qalardı. Ancaq o, məşhur futbolçu oldu. Özü də sadəcə, məşhur futbol ulduzu yox. Bu adam meydanda çevrilir əfsanəyə, dönür nağıla... O, meydanda olanda hər dəfə bu əfsanəliyi, nağılı hiss edirsən. Onun oyununu izləyən futbol həvəskarları sanki qeyri-adi nağıllar aləminə düşürlər. Yəqin ki, çoxları artıq anladı ki, söhbət Lionel Messidən gedir...*



### "Nəhənglərin döyüşü" həmişə maraqlı olur

Onu heç nə çaşdırmır, başı təriflərdən dumanlanmır. Adı heç vaxt qalmaqallarda hallanmayıb. Gecə klublarına, başqa əyləncələrə meyilli deyil. Bu dahi futbolçu öz ustalığına arxayındır. Bu ustalıq isə məhz futbol incəliklərinin duyumundan irəli gəlir. Onun futbol duyumuna bələd olan digər komandaların oyunçuları bütün oyun ərzində çox ehtiyatla hərəkət edirlər. Bu duyumun qarşısında müdafiəçilər sanki özlərini yığışdırırlar.

Bu gün " Barselona" son illərin nailiyyətlərinə görə məhz ona borcludur. Yeri gəlmişkən, elə yazının bu yerində "El Klassiko"ya da toxunmaq istərdim. "Nəhənglərin görüşü"nü hər dəfə hamı səbirsizliklə gözləyir. Söhbət Madridin "Real" və Kataloniyanın "Barselona" klublarından gedir. Əslində bu qarşılaşma təkcə İspaniyada deyil, həm də bütün dünyada futbolu anlayanların səbirsizliklə gözlədikləri idman şousudur. "Nəhənglərin döyüşü" həmişə maraqlı olur və bu futbol bayramlarında hər dəfə Messinin pozulmaz naxışları qalır.

Messi oyun boyu futbolla yaşayır. Əlbəttə, ayrı-ayrı tanınmış məşhur futbolçular da az və ya çox dərəcədə futbolu daxillərində yaşada bilərlər. Amma bu baxımdan da Messi bənzərsizdir. Çünki onunla müqayisədə başqalarının futbolla yaşaması əfsanəni, nağılları xatırlatmır...

### Zirvələri müqayisə etməzlər

Messi futbolda ən hündür zirvələrdən biridir. Təbii ki, zirvələri müqayisə etməzlər. Hərəsinin öz yeri var. Onlara baxıb zövq alarlar. Ən başlıcası da bu deyilmi?...

Mən Maradonanı da nəhəng futbolçu hesab edirəm. Amma oyun keyfiyyətlərinə, xarakter cizgilərinə, reputasiyalarına yanaşma baxımından konkret dövrə uyğun onlara qiymət vermək lazımdır. Hər birinin öz zamanı olub. Düzdür, Maradonadan fərqli olaraq, Messinin yığmada yaddaqalan parlaq oyunları çox olmayıb. Bu başqa bir mövzunun söhbətidir. Hərçənd ki, Maradona da mənim sevdiyim futbolçu olub. Ancaq bu gün mən Messini Maradonadan üstün hesab edirəm. Təbii ki, bu mənim seçimimdir. Kimsə, razılaşmaya bilər.

Gəlin, bir anlığa təsəvvür edək ki, Maradona, Messi kimi futbolçular heç əvvəldən olmayıb. Mənə elə gəlir ki, o zaman dünya futbolunda bir zövq çatışmazlığı, bir boşluq yaranardı. Sanki futbolda tam harmoniya, ahəng məntiqliyi, bir-birini tamamlayan reallıqlar hiss edilməzdi. Nələrsə qırılıb düşərdi. Bəlkə də fəlsəfi bir ahəng çatışmazdı (Bəlkə elə Eysebionu, braziliyalı Ronaldonu, Ronaldinyonu da bura əlavə edim? Axı, onlar da mənim sevdiyim futbolçular olub.... Həm də mövzuya uyğundur).

### Futbol sevgisinin zamanı olmur

İllər keçir. Vaxtı ilə pərəstiş etdiyin futbolçuların oyunlarını indi daha yaxşı anlamağa başlayırsan. Dönə-dönə baxdıqdan sonra... Çünki futbol sevgisinin zamanı olmur. Məsələn, mən yaşa dolduqca uşaqlıq illərimin kumiri olan Eysebionun artıq arxivə qovuşmuş və futbol tarixinin qızıl fonduna daxil olmuş oyunlarından indi daha çox zövq alıram.

Nə isə..... Deyəsən, mətləbdən uzaqlaşdım. Amma məncə haşiyə yerinə düşdü. Yenə də mövzuya qayıdıram.

Futbolçulara olan münasibətdən, hansı futbol ulduzunun kimə nə dərəcədə xoş gəlib-gəlməməsindən asılı olmayaraq, faktları, reallıqları qəbul eləmək hər kəsin borcudur. Məsələn, Messinin öz futbol dünyası olmasını kim inkar edə bilər?

Onun əksər oyunlarında tamaşaçılar sanki izaholunmaz möcüzəli, sirli duyğular yaşayırlar. Belə anlarda rejissorlar da stadiondakı azarkeşlərin qürur hissi keçirmələrini böyük həvəslə yaxından tamaşaçılara göstərirlər.

### Futbolu anlamayanlar Messini anlaya bilməzlər

Messi futbolda əfsanədir və o, futbol əfsanəsi olaraq həmişəlik qalacaq. Messini müşahidə edəndə belə təsəvvür yaranır ki, digər ulduzlardan, hətta futbol nəhənglərindən fərqli olaraq onun üçün şöhrət hissi, ad-san qayğısı yoxdur sanki. Ancaq əksinə, elə əslində Messi adı, Messi şöhrəti dünyada yaşayır. Artıq neçə illərdir ki, belədir. Elə bu gün də...

Futbolu anlamayanlar Messini anlaya bilməzlər. Onun sehrkar oyununu milyonlarla tamaşaçı izləyir. Stadionlarda onu canlı görmək istəyənlər elə bu arzu ilə yaşayırlar. Öz gözləri ilə yaxından, canlı... Elə mən də...

Bəli, onu sidq-ürəkdən sevirlər. Onu sevməmək mümkün deyil. Çünki o, əfsanədir, nağıldır!

Ecazkar oyun üslubuna həmişə sadiq olan Leo haqqında çox deyilib, çox yazılıb, filmlər çəkilib. Bütün bunlar bundan sonra da davam edəcək. Çünki o, həm də böyük bir xəzinədir. Messidə nə varsa, hamısı yalnız onun özünə aiddir. Onların bütün incəlikləri, ölçülərini də o özü bilir...



## Xəbərlər

### Təmsilçimiz "Glory" seriyalı yarışlarda qələbə qazanıb

"Qəbələ" idman klubunun təmsilçisi Alim Nəbiyev növbəti döyüşünü keçirib. 23 yaşlı idmançımız kikboksinq üzrə nüfuzlu "Glory" seriyalı yarışlarda debüt edib. O, Fransanın Lion şəhərində təşkil olunan "Glory 47"-də qüvvəsini sınayıb. Alim Nəbiyev Fransa təmsilçisi Cimmi Vienotla qarşılaşıb.



Yarımorta çəki dərəcəsində keçirilən döyüş 5 raunddan ibarət olub. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmanın qalibi hakimlərin rəyi ilə müəyyənləşib. Alim Nəbiyev bu döyüşdə 4:1 hesabı ilə qələbə qazanıb.

### Yeniyetmə sumoçulardan uğurlu nəticə

Polşanın Varşava şəhərində keçirilən yeniyetmələr arasında sumo üzrə Avropa birinciliyinə yekun vurulub. Yarışda iştirak edən gənc sumoçularımız Varşavada komanda hesabında üçüncü yeri tutublar. Cəmi 3 idmançı ilə təmsil olunan yığma komandamız 3 qızıl və 1 gümüş medala layiq görülüb. Təmsilçilərimizdən Məhərrəm Eyvazov (60 kq), Səftər Məmmədli (85 kq), Camal Feyziyev (+100 kq) bütün rəqiblərə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Mütləq çəki dərəcəsində qüvvəsini sınayan Camal Feyziyev yalnız final görüşündə məğlub olaraq ikinci yeri tutub.

### Ölkə çempionumuz dünya çempionatında da birinci olub

İtaliyanın Karrara şəhərində döyüş növləri üzrə dünya çempionatı keçirilib. Yarışda ölkəmizi yeniyetmələr arasında sanda üzrə ikiqat Azərbaycan çempionu Fətəli İsmayılov (48 kq) təmsil edib. İdmançımız Şotlandiya, İtaliya və Rusiyadan olan rəqiblərə qalib gələrək dünya çempionatının qızıl medalını qazanıb.

### Favoritlərdən növbəti qələbə

Oktyabrın 28-də həndbol üzrə ölkə birinciliyində növbəti oyunlar keçirilib. Hər üç oyunda favoritlər qələbə qazanıblar. Qadınlar arasında yarışlarda "Azəryol" klubu "İdman Akademiyası"nı 37:12, "Azərsu" komandası "Gənclər Birliyi"ni 39:19 hesabı ilə məğlub edib.

Kişilərin turnirində isə Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin təmsilçiləri ilə qarşılaşan "Bakı" həndbolçuları 36:17 hesabı ilə qalib gəliblər.

### Karateçilər ölkə çempionatında yarışacaqlar

Noyabrın 24-də yeniyetmələr və gənclər arasında karate üzrə 18-ci respublika birinciliyi və böyüklər arasında 25-ci ölkə çempionatı keçiriləcək. Çempionatın keçirilməsində məqsəd idmanın bu növünü inkişaf etdirmək, idmançı və hakimlərin ustalıq səviyyəsini artırmaq və beynəlxalq turnirlərdə, dünya və Avropa çempionatlarında iştirak etmək üçün yığma komandaya namizədləri seçməkdir.

Yarışların keçirilməsinə ümumi rəhbərliyi Gənclər və İdman Nazirliyi, Azərbaycan Karate-Do Federasiyası Assosiasiyası və Milli Karate Federasiyası edir. Bakı İdman Sarayında keçiriləcək yarış noyabrın 26-dək davam edəcək.

### Avropa çempionatında 6 medal qazanıldı

Rumıniyanın Buxarest şəhərində Kempo üzrə 10-cu Avropa çempionatı keçirilib. 22 ölkənin iştirak etdiyi yarışda Azərbaycan komandası da qüvvəsini sınayıb. Ölkəmiz çempionatda Azərbaycan Kempo Federasiyasının prezidenti Rauf İbrahimovun rəhbərliyi ilə 8 nəfərlik heyətlə təmsil olunub. Üç gün davam edən yarışda idmançılar Kempo Submişn Gi, Kempo Full və Kempo Semi versiyaları üzrə mübarizə aparıblar.

Təmsilçilərimizdən Kempo Full üzrə görüşlərdə Valeh Quliyev (+95 kq) bütün rəqiblərə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.




Kempo Semi versiyasında Vüsal Qələndərov (-95 kq), Nicat Hüseynov (75 kq) gümüş, Şəmsi Hüseynov (70 kq) isə bürünc medal qazanıblar. Kempo Submişn növü üzrə isə iki idmançımız - Xəyal Məmmədzadə (75 kq) və Mahir Ələkbərov (65 kq) çempionatda üçüncü olublar.

Ümumilikdə, Azərbaycan komandası xal hesabında üçüncü yeri tutub.

**Futbol**

# Elxan Məmmədov UEFA nümayəndələri ilə görüşüb



*AFFA-nın inzibati binasında UEFA nümayəndələri ilə futbolu Avropada qadınlar üçün "bir nömrəli" idman növü etmək məqsədi daşıyan "Together We Play Strong" proqramı ilə bağlı seminar keçirilib.*

Seminardan əvvəl AFFA-nın baş katibi Elxan Məmmədov UEFA nümayəndələri ilə görüşüb.

UEFA nümayəndələri "Together We Play Strong" proqramı və seminarın gündəliyi ilə bağlı məlumat veriblər. Baş katib də öz növbəsində ölkəmizdə qadın futbolunun inkişaf mərhələləri və Avropada qadın futbolu ilə bağlı fikirlərini onlarla bölüşüb. Elxan Məmmədov Avropada qadınlararası yarışların formatı ilə bağlı fikir və təklifləri barədə də fikirlərini bildirib. Qadın futbol komandalarının tarixi və güc nisbəti kəskin fərqləndiyi üçün bəzi oyunlarda çox böyük hesablı nəticələr müşahidə etmək olur. Bu isə, xüsusilə zərif cinsin nümayəndələrində ruh düşkünlüyü yaradır və milli assosiasiyaların futbolun bu növünə marağını azaldır. Baş katib güc nisbətini uyğunlaşdırmaq üçün "Millətlər Liqası" formatının qadın futbolu üzrə yarışlarda tətbiq olunmasının münasib olduğunu bildirib. UEFA təmsilçiləri baş katibin təklifini UEFA rəhbərliyinə təqdim edəcəklərini və nəzərə alacaqlarını hesabata daxil edəcəklərini bildiriblər.

İki gün ərzində "Together We Play Strong" proqramı, qadın futbolunun inkişafı və kommersiya perspektivləri barədə təqdimatlar edilib və qrup məşğələləri keçirilib.

Seminarda UEFA-nın qadın futbolu üzrə marketinq meneceri Kayleigh Grieve, qadın futbolu üzrə marketinq koordinatoru İvan Kraljevic, kütləvi futbol məsləhətçisi İqor Jankevic və kommersiya məsləhətçisi Kate Bosomworth, AFFA-nın baş katibinin müavini, kütləvi futbol, marketinq və sponsorluq, qadın futbolu, qeydiyyat və statistika, mətbuat və ictimaiyyətlə əlaqələr, beynəlxalq əlaqələr və klubların lisenziyalaşdırılması şöbələrinin nümayəndələri iştirak ediblər.

**Spartakiada**

# XX Respublika Spartakiadası davam edir

***"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin (BTİCİB) təşkilatçılığı ilə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr olunmuş XX Respublika Spartakiadası davam edir. Spartakiada çərçivəsində artıq mini futbol, voleybol, stolüstü tennis, kəndirdartma və daşqaldırma idman növləri üzrə yarışlara yekun vurulub.***

Oktyabrın 25-də Yasamal rayonu idman meydançasında keçirilən kəndirdartma yarışlarında ən güclü komanda adını Müdafiə sənayesi işçilərinin kollektivi qazanıb. Aviasiya işçilərinin komandası 2-ci, Avtomobil nəqliyyatı və təsərrüfatı komandası isə 3-cü olub. Oktyabrın 27-28-də "Azal" İdman Klubunun zalında təşkil edilən stolüstü tennis yarışları maraqlı və gərgin mübarizə şəraitində keçib. Aviasiya işçilərinin kollektivi heç kimə güzəştə getməyərək qalib olmağı bacarıb. İkinci yerdə Metropoliten işçilərinin komandası qərarlaşıb. Avtomobil nəqliyyatı və təsərrüfatı işçilərinin kollektivi isə üçüncü yerlə kifayətlənib. Həmin kollektiv oktyabrın 29-30-da keçirilən daşqaldırma yarışlarında isə 1-ci yerə layiq görülüb. "Zenit" İdman Cəmiyyəti İctimai Birliyinin idman zalında təşkil edilən yarışlarda sonrakı mükafatalayiq yerləri müvafiq olaraq Metropoliten və Müdafiə sənayesi işçilərinin komandası tutub.

Mükafatalayiq yerləri tutan komandalar "Zenit" BTİCİB-nin müvafiq diplomları və qiymətli hədiyyələri ilə mükafatlandırılıblar.

XX Spartakiadaya noyabrın 23-də yekun vurulacaq.



**Taekvondo**

# *Kiprdə 18 idmançımız yarışacaq*



Noyabrın 2-4-də Kiprin Larnaka şəhərində taekvondo üzrə Avropa birinciliyi keçiriləcək. 21-ci dəfə təşkil ediləcək yarışda 700-dən çox idmançı mübarizə aparacaq. Azərbaycanın gənclərdən ibarət taekvondo üzrə milli komandasının da iştirak edəcəyi yarış Larnakadakı "Kision Athletic Center" arenasında keçiriləcək.

Avropa birinciliyində ölkəmizi 18 (10 oğlan və 8 qız) gənc taekvondoçu təmsil edəcək. Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayev və ədalət təmsilçilərimizdən beynəlxalq dərəcəli hakim Gündüz Abdullayev də Kiprə yollanıb.

Qeyd edək ki, baş məşqçi Məmməd Abdullayev və Zahid Məmmədovun rəhbərlik etdiyi komanda noyabrın 6-da vətənə qayıdacaq.

## Millimizin müdafiəçisi yaşıl meydanlara nə vaxt qayıdacaq?

"Atletiko" klubu ilə Bakıdakı matçda zədələnən "Qarabağ"ın futbolçusu Bədavi Hüseynovun uzun müddət yarışlardan kənarda qalacağı məlum olub. Belə ki, bu günlərdə əməliyyat olunan müdafiəçinin zədəsinin sağalma prosesinin təxmin olunan müddətdən çox çəkəcəyi aydınlaşıb.



Bu isə o deməkdir ki, Bədavi Hüseynov "Atletiko" ilə səfərdəki qarşılaşma ilə yanaşı, hələ xeyli oyun buraxmalı olacaq. Onun ilin sonuna qədər yaşıl meydana çıxmayacağı dəqiqdir. Bədavinin həttа 8 ay ərzində "Qarabağ"ın və millinin formasını geyinməyəcəyi də istisna edilmir.

Qeyd edək ki, Bədavi Hüseynov 2012-ci ildən Ağdam klubunun üzvüdür.

## FİFA yeni liqa yaradır

FİFA milli komandalar üçün yeni turnir keçirmək niyyətindədir. Böyük Britaniya mətbuatının yaydığı məlumata görə, beynəlxalq futbol qurumu yoxlama oyunlarını əvəzləyəcək Dünya Liqasının təşkilinə hazırlaşdığını iddia edir.

UEFA-nın Avropa yığmaları üçün formatını təsdiq etdiyi Millətlər Liqasından nümunə götürən FİFA eyni tipli turnir keçirməyi məqsədəuyğun sayıb. Bu yarışın oyunları bir il ərzində keçiriləcək və komandalar üç divizionda çıxış edəcək.

Yığmalar FİFA reytinqinə görə liqalara bölünəcək. Bu ideya ildən-ilə marağını itirən beynəlxalq yoxlama oyunlarını əvəzləyə biləcək görüşlərin təşkilinə xidmət edəcək.

Dünya Liqasının ilk turnirinin 2019-cu ildə təşkil olunması planlaşdırılır. 2018-ci ilin payızında Millətlər Liqasında, 2019-cu ildə isə EURO-2020-nin seçmə oyunlarında çıxış edəcək Avropa yığmalarının yeni yarışda necə iştirak edəcəyinə isə hələ aydınlıq gəlməyib.

## Sankt-Peterburq Avro-2020-nin açılış oyununun bu şəhərdə keçirilməsinə iddia edir

Sankt-Peterburq 2020-ci ildə Avropa çempionatının açılış oyununun bu şəhərdə keçirilməsinə iddia edir.

Rusiya Federasiyasının Baş nazirinin müavini Vitali Mutkonun sözlərinə görə, Rusiya Futbol İttifaqı (RFİ) artıq bu barədə UEFA-ya ərizə ilə müraciət edib. O deyib: "Biz ərizə verib ("Avro-2020"nin açılış oyununun keçirilməsinə) Peterburqu təklif etdik. Biz bütün şəraiti yaratmağa hazırıq. Peterburq azarkeşləri buna layiqdirlər. Stadion fantastikdir. Əvvəllər onu çox tənqidlər var idi, lakin indi o, dünyanın ən yaxşılarından biridir".



2020-ci ildə tarixdə ilk dəfə olaraq Avropa çempionatının oyunları 13 şəhərdə keçiriləcək. Oyunlar Sankt-Peterburq (Rusiya), Bakı (Azərbaycan), Buxarest (Rumıniya), Budapeşt (Macarıstan), Münhen (Almaniya), Brüssel (Belçika), Amsterdam (Hollandiya), Kopenhagen (Danimarka), Roma (İtaliya), Bilbao (İspaniya), Dublin (İrlandiya), London (İngiltərə) və Qlazqoda (Şotlandiya) təşkil ediləcək.

**Xəbərlər**

## *Millimizin üzvü ən məhsuldar oyunçu olub*

Fransa çempionatında III turun oyunlarına start verilib. Turun ilk günündə Azərbaycan yığmasının blokçusu Olena Həsənova şərəfini qoruduğu "Le Kann" "Evre" klubunun qonağı olub.

Qarşılaşma təmsilçimizin komandasının mövsümdə ilk məğlubiyyəti ilə nəticələnib. Meydan sahibləri 3:1 hesabı ilə qalib gəliblər. Matçda aktivinə 14 xal yazan Olena Həsənova komandasının ən məhsuldar oyunçusu adını alıb.

Qeyd edək ki, "Le Kann" 6 xalla 5-ci yerdədir.

## *Mercedes"in pilotu dördüncü dəfə dünya çempionudur*

"Mercedes"in pilotu Luis Hamilton Formula-1 üzrə 2017-ci il dünya çempionatının qalibi olub.

Meksika Qran-prisində finişə doqquzuncu çatmasına baxmayaraq Luis Hamilton mövsümün başa çatmasına iki mərhələ qalmış ümumi xal hesabında bütün rəqiblərini qabaqlayıb.

Dördüncü dəfə dünya çempionu tituluna layiq görülən 32 yaşlı britaniyalı idmançı 333 xalla pilotların sıralamasında birinci yerdədir. İkinci sırada "Ferrari"nin almaniyalı pilotu Sebastyan Fettel (227 xal), "Mercedes"in digər üzvü Valtteri Bottas (262 xal) isə üçüncü pillədə qərarlaşıb.



Meksika Qran-prisinin qalibi "Red Bull"un pilotu Maks Ferstappen olub.

Hazırda rekord göstərici Mixael Şumaxerə məxsusdur. Onun yeddi çempionluğu var.

## *MBA basketbolçusu "casusluq" edib*

ABŞ Milli Basketbol Assosiyasiyasının oyununda maraqlı anlar yaşanıb. "Bruklin" klubunun oyunçusu Trevor Buker fasilə zamanı rəqib komandanın skamyasına yaxınlaşaraq məşqçinin təlimatlarına qulaq asıb. Məşqçi "casusu" yalnız onun sualından sonra görüb. Bir neçə saniyədən sonra özünə gələn məşqçi bunun zarafat olduğunu anlayıb.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri çap edilir.

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19